# "Munisnamə"də adları çəkilən bəzi sufilər haqqında (birinci məqalə)

***Rəna Rzayeva***
*AMEA Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, f.ü.f.d.*

Hələ keçən əsrin sonlarında elm aləminə məlum olmuş, müəyyən qədər təqdim olunmuş qiymətli ədəbi abidələrdən biri də XII əsr müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın «**Munisnamə**» əsəridir. Bu əsərin tədqiqi yolunda müəyyən işlər görülmüşsə də, bunun kifayət qədər olmasını iddia etmək düzgün olmaz. Belə ki, «**Munisnamə**» ümumən orta əsrlər müsəlman Şərqində ədəbi inkişafın bir çox məsələlərinə işıq salan abidə kimi olduqca qiymətli və müəyyən mənada unikal əsərdir. Təkcə ədəbi əsər kimi deyil, həm də bir mənbə kimi dəyərləndirilməsi zəruri görünən, maraqlı hekayətlər, nağıllar, rəvayətlər, lətifələr, müdrik kəlamlar və aforizmlər toplusu olan «**Munisnamə**» farsdilli ədəbiyyat tarixində müəyyən ədəbi təmayülün yetkinləşməsində dönüş nöqtəsi olmuşdur. Bu əsəri müxtəlif aspektlərdən dəyərləndirmək, ona müxtəlif nöqteyi-nəzərdən yanaşaraq bütün incəliklərini çözüb üzə çıxarmaq üçün, şübhəsiz ki, hələ çox illər, tədqiqatlar, araşdırmalar tələb olunur.

«**Munisnamə**»nin yazıldığı dövrdə müsəlman Şərqinin mədəni-mənəvi və sosial-siyasi həyatına təsir göstərən ən mühüm amillərdən biri **sufizm** idi. İslam çərçivəsində meydana gəlmiş və insanın Allahla şəxsi psixoloji təcrübə vasitəsilə birbaşa ünsiyyətini (qovuşmasını) mümkün sayan **sufizm mistik** və **dini-fəlsəfi** bir dünyagörüşü olaraq (10, s.4) çox böyük sürətlə yayılmış və bütün yaradıcılıq sahələrinə nüfuz etmişdir. Təriqət ədəbiyyatı orta əsr islam şərqində yaranmış ədəbi irsin ən mühüm hissəsini təşkil edir. Ümumiyyətlə, təriqət ədəbiyyatı orta əsr şərq ədəbiyyatının bədii-fəlsəfi fikri, dini-ədəbi düşüncəsi baxımından o qədər dəyərli və o qədər önəmli mövqeyə malikdir ki, həmin dövrün ədəbiyyatı haqqında təriqət ədəbiyyatından söz açmadan bəhs etmək mümkün deyildir. Burada klassik təsəvvüf ədəbiyyatı içərisində xüsusi əhəmiyyətə malik **«ər-Riayəli-hüquqillah»** əsərinin müəllifi **Haris ibn Əsəd Mühasibinin** (v.243/857), təsəvvüf düşüncəsinin ilk təmsilçisi **Hakim Tirmizinin** (v.320/932), təsəvvüf elminin mənbələri və meydana çıxma şəraitini ilk dəfə qələmə almış **Əbu Nəsr Sərracın** (v.378/988), kəlam, fiqh, hədis alimi olan **Əbu Bəkr Kələbazinin** (v.380/990), zöhd, ibadət, itaət və təsəvvüfün praktiki cəhətlərini izah etmiş **Əbu Talib Məkkinin** (v.386/996), sünni təsəvvüfi sistemləşdirməsi baxımından xüsusi çəkiyə malik **Əbdülkərim Quşeyrinin** (v.465/1072), təsəvvüf haqqında fars dilində yazılmış ilk əsərin müəllifi **Əli ibn Osman əl-Cüllabi əl Hücvirinin** (v.465/1072), kəlam, fəlsəfə və təsəvvüf ustadı olan **Məhəmməd Qəzzalinin** (v.505/1111), Bağdadda **«şeyxlər şeyxi»** kimi tanınan **Əbu Həfs Sührəverdinin** (v.632/1234), təsəvvüfi təfəkkürün ən mühüm təmsilçisi **Muhyiddin ibn Ərəbinin** (v.638/1240), eşq və vəcd şairi **Mövlana Cəlaləddin Ruminin** (v.672/1273) adlarını çəkmədən, onların özlərindən sonra bu yola qədəm basanlar üçün yazıb qoyduqları irsi xatırlamadan əsas mövzuya keçmək, zənnimizcə, düzgün olmazdı. (3, s.35)

Sufizmin formalaşma mərhələsi VIII-X əsrlərə təsadüf edir ki, bu dövrdə o, asketizmdən (zahidlik hərəkatından) ayrılaraq müstəqil **dini-fəlsəfi** və **əxlaqi** bir təlimə çevrilir. X əsrin sonları XI əsrin əvvəllərində İslam dünyasının **ehkam ilahiyyatı** öz sonuna yetişməkdə idi, məhz bu dövrdə yaradılmış hər hansı **tarixi, aqioqrafik** və başqa ədəbi abidələrdə dövrün tanınmış, nüfuzlu ilahiyyat alimlərinin, müxtəlif təriqətlərin nüfuzlu nümayəndələrinin təsiri açıq-aşkar təzahür edirdi.(8, s.94) Nəhayət **təsəvvüf, şəriət** və **fəlsəfə** təlimləri ortaq bir məxrəcdə birləşərək cəmiyyətə öz təsirini göstərməyə başlamışdır. (8, 99) Artıq XI-XII əsrlərdə sufizm öz inkişafında ən intensiv mərhələyə daxil olur. Məhz bu dövrdə təsəvvüf ideyaları bütün müsəlman dünyasına yayılaraq, intellektual elitanın imtiyazı olmaq keyfiyyətini itirir, onun nəzəri əsaslandırılması sahəsində sonrakı inkişaf mər-

hələlərinin xarakterini müəyyən edən ciddi addımlar atılır, ilk mütəşəkkil təriqətlər yaranır və nəhayət, sufii ideologiyası poeziyaya nüfuz edir.

**Y.E.Bertelsin** yazdığı kimi, **əl-Qəzzalinin** (1059-1111) islahatı və XII əsrin tarixi hadisələri nəticəsində «sufizm elementləri ədəbiyyatın bütün növlərinə daxil olur və sonrakı bir neçə əsr ərzində öz hakim mövqeyini qoruyub saxlayır» (4, s.43). Məhz, böyük alim, filosof, sufi-mistik **əl-Qəzzalinin** sayəsində ayrı-ayrılıqda inkişaf edən və İslam inancının zəifləməsinə gətirib çıxaran **fəlsəfə, batinilik, təsəvvüf, kəlam** bir yerə cəm olmuş və İslamın sarsılmazlığına xidmət etmişdir. Eyni zamanda, **Qəzzali** sufilərə müsəlman cəmiyyətində başqaları ilə bərabərhüquqlu vətəndaşlar kimi yaşamaq imkanı qazandırmışdır. (2, s.29) Elə bu dövrdə **Əbu Səid ibn Əbi-l-Xeyr** (967-1049), **Xacə Abdullah Ənsari** (1006-1088), **Əbü-l Həsən Əli ibn Osman ibn Əli əl-Qəznəvi əd-Cülləbi əl Hücviri** (1009-1072), **Sənai Qəznəvi** (1048-1150) və nəhayət, **Fəridəddin Əttar Nişapuri** (1119-1230) farsdilli sufi ədəbiyyatının ən parlaq nümunələrini yaratmışdırlar.

Həmin dövrdə «**sufilik**» ayrı-ayrı mütəfəkkirlərin təliminə görə şaxələnib müəyyən ordenlərə çevrilirdi. XII əsrdə **Əbu Nəccəb Sührəverdinin** və onun qardaşı oğlu **Əbuhəfs Sührəverdinin** adı ilə bağlı **sührəverdilik, Əhməd Rifainin** adı ilə bağlı **rifailik, Əbdülqadir Cili Cilaninin** adı ilə bağlı **qadirilik, Nəcməddin Kübranın** adı ilə bağlı **kübravilik, Əhməd Yasəvinin** adı ilə bağlı **yasəvilik** və başqa ordenlər yaranmışdır. Onlar sonrakı dövrlərdə formalaşaraq bitkin cərəyanlara çevrilmişlər. **Təsəvvüf mötədil (mülayim)** və **ifrat (sərt)** olmaqla iki istiqamətdə inkişaf edirdi. **Mötədil** sufilər **İslam monoteizmindən** kənara çıxmırdılar, **ifrat** sufilər isə az-çox dərəcədə **panteizmə** meyl göstərirdilər. Azərbaycanda sufizmin mötədil qolunun ən güclü nümayəndələrindən «**sührəvərdilik**» cərəyanının başçısı Əbu Nəccəb Sührəverdi və onun qardaşı oğlu Əbuhəfs Sührəverdi olmuşdur. (15)

Əbubəkr ibn Xosrov əl-Ustad öz dövründə belə geniş vüsət tapmış bir ideoloji hərəkata, təbii ki, biganə qala bilməzdi. Məhz bu səbəbdən o, «Munisnamə»nin III və IV fəsillərini bilavasitə sufizmə həsr etmişdir (14, s.10[a]-61[a]). «Munisnamə»nin **didaktik** adlandırdığımız hissəsində həcm baxımından ən böyük yer tutan bu aqioqrafik fəsillər, müvafiq olaraq, **«Şeyxlər, övliyalar, abidlər və təriqət başçılarının adları, onların sözləri və hekayətləri haqqında»** və **«Bu şəxslərin fəzilətləri, doğulduqları yer və zaman haqqında»** adlanır.

Söhbət **aqioqrafik** ədəbiyyatdan gedəndə fikirdə ilk növbədə orta əsr və həmin dövrdə oxucuları daha çox cəlb edən, mömünlərin həyat tərzini əks etdirən əsərlər canlanır. Əslində məhz həmin dövrdə, sözün tam mənasında, **aqioqrafik** ədəbiyyat mövcud olmuşdur. (5, s.38) Biz də, həmçinin nəzərə aldığımız fəsilləri məhz bu nöqteyi-nəzərdən araşdırmışıq. Həmin fəsillər arasında, daha doğrusu, III fəslin sonunda müəllifin maraqlı bir mülahizəsinə rast gəlirik:

«Kitabın müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın bu camaatı (sufiləri) xatırlamaqda məqsədi və əsərlərini yad etməkdə niyyəti budur ki, o, oxuduqlarından əlavə peyğəmbərin hədisləri və Mustafanın (Məhəmməd peyğəmbərin) – ona Allahın salam və salavatı olsun! – sözləri içərisində belə bir xəbər tapmışdır: «Salehləri yad edərkən ilahinin mərhəməti nazil olur». Yəni kim böyük bir işdə aciz qalıb onun çarəsini bilməsə, yaxud kimin dərdi, qəmi, borcu, xəstəliyi və sıxıntısı olsa, əgər haqqında danışılan bu şərəfli camaatı qüdrətli və uca Tanrının dərgahına vasitəçi salsa, şübhəsiz, həmin tayfanın (sufilərin) vasitəçiliyinin bərəkəti sayəsində Allah-təala onu məqsədinə yetirər, dünyada və axirətdə işlərini düzəldər, müalicə ilə aradan qalxmayan hər dərdini və əzabını yox edər, bircə ölümdən başqa... »(14, s.19[a]).

Qeyd etmək lazımdır ki, bu fəsillər «Munisnamə»nin rus dilinə tərcüməsinə daxil edilməmişdir və prof. R.M.Əliyev bunu həmin fəsillərin «oxucular üçün maraqlı olmayacağı» ilə əsaslandırmışdır (9, s.572). Əlbəttə, geniş oxucu kütləsinin marağı baxımından bu mövqeyi haradasa haqlı saymaq olar, lakin həmin fəsillər, şübhəsiz, elmi nöqteyi-nəzərdən çox əhəmiyyətlidir və ciddi maraq doğurmalıdır. Son dövrdə şərqşünaslıqda sufizmə, onun tarixinə, nəzəriyyə və praktikasına xüsusi diqqət yetirilməsi də bunu təsdiq edir.

Göstərilən fəsillər, adlarından da göründüyü kimi, erkən sufizm nümayəndələri haqqında əsasən bioqrafik məlumatları əhatə edir. Burada onların doğum və vəfat illəri, təriqətə qədəm qoymalarının tarixçələri, səbəbləri və mistik təcrübələrini ifadə edən sözləri verilmişdir. Bu

zaman əl-Ustad, şübhəsiz, öz dövründə mövcud olmuş mənbələrdən faydalanmışdır.

Məlumdur ki, artıq X əsrdən başlayaraq sufizmin tarixinə dair əsərlər meydana çıxmışdır.

Bunlardan **Cəfər əl-Xüldinin** (vəf. 959) **«Hekayat əl-ouliya»** («Övliyalar haqqında hekayətlər»), **Əbu Nəsr Sərrac ət-Tusinin** (vəf. 988) **«Kitab əl-lumə fi-t-təsəvvüf»** («Təsəvvüfə dair nurlandıran kitab»), **Əbu Nüəym əl-İsfahaninin** (vəf. 1038) **«Hilyət əl-ouliya»** («Övliyaların zinəti»), **Əbdürrəhman əs-Suləminin** (vəf. 1021) **«Təbəqat əs-sufiye»** («Sufilərin təbəqələri»), **Əbülqasim əl-Quşeyrinin** (vəf. 1072) **«Risalə»** və s. əsərlərini göstərmək olar. Həmin dövrdə **Xacə Abdullah Ənsari Suləminin «Təbəqat əs-sufiyə»** əsərini fars dilinə tərcümə etmişdi. Eyni zamanda fars dilində, elə həmin **Ənsariyə** aid edilən **«Mənazil əs-sairin»** («Yolçuların dayanacaqları»), **Əl-Hücvirinin** (vəf. 1072) **«Kəşf əl-məhcub»** («Gizlinlərin açılması») kimi sufi mənbələrin yaradılmasını da qeyd etmək lazımdır (6, s.229; 7, s.223; 11, s.335-336).

Əbubəkr ibn Xosrov əl-Ustad, şübhəsiz ki, bu zəngin və təəssüf ki, bir çox nümunələri dövrümüzə gəlib çatmamış ədəbiyyatla tanış olmuş, sufizm tarixində mühüm rol oynamış şəxslər haqqında məlumatları seçib əsərinə daxil etmişdir. **Burada Həsən əl-Bəsri** (642-728), **İbrahim ibn Ədhəm** (vəf. 778), **Şəqiq Bəlxi** (vəf. 810), **Bişr əl-Xafi** (vəf. 841), **Rabiə əl-Ədəviyə** (713-801), **Məruf Kərxi** (vəf. 815), **Zu-n-Nun əl-Misri** (796-861), **Haris əl-Muhasibi** (781-857), **Cüneyd Bağdadi** (vəf.910), **Füzəyl ibn İyaz** (vəf. 803), **Əbülhüseyn ən-Nuri** (vəf. 907), **Səri əs-Səqəti** (vəf. 865), **Cəfər əl-Xüldi** (vəf. 959), **Bayəzid Bəstami** (vəf. 874), **Şeyx Əbubəkr əş-Şibli** (861-965) və digər məşhur sufilərlə yanaşı, erkən sufizmin onlarla az tanınmış və ya başqa mükəmməl mənbələrdə adları xatırlanmamış nümayəndələrindən də bəhs olunmuşdur.

**«Munisnamə»**nin adı çəkilən bu fəsillərinin **Əbül-Həsən Əli ibn Osman ibn əl-Qəznəvi əd-Cullabi əl-Hücvirinin «Kəşf əl-məhcub»**(12), **Fərid əd-din Əttarın «Təzkirət ül-övliya»** (13) əsəri ilə müqayisəli şəkildə araşdırılması nəticəsində belə bir fikir formalaşır ki, bu iki möhtəşəm, mükəmməl əsərin müstəqil ədəbi abidə olduğunu nəzərə alsaq, Əbubəkrin gördüyü iş bu müəlliflərin işindən heç də az dəyərli deyildir. Belə ki, əgər Hücvirin təzkirəsində **74**, Əttarın təzkirəsində **97** sufi şeyxinin adı xatırlanırsa, Əbubəkrin bu fəsillərində, özünün yazdığına görə, **72**, amma araşdırmaların nəticələrinə əsasən **85-86** və hətta daha artıq sufi şeyxinin adının çəkildiyini iddia edə bilərik. Müəllif IV fəslin sonunda yazır:

"Artıq tamam oldu. Bununla da görkəmli dini şəxsiyyətlər, alimlər və o zümrəyə mənsub olan pirlər haqqında yazılan məqalə və məqamlar sona çatdı. - Allah onların hamısına rəhmət eləsin! - Burada 72 - məşhur sufinin tərcümeyi-hali verilmişdir. Lakin bəzi tanınmış sufilərin o cümlədən, **Həsən Bəsri** və **Əbusəid Əbül-Xeyr** kimi tanınmış və böyük şöhrətə malik olan sufilərin təcrümeyi-halları, onların geniş şəkildə tanındıqlarına görə, verilməmişdir. Ulu Tanrı bu camaatdan irəli gələn xeyir-bərəkət və nemətlərini bu kitabın (Munisnamə kitabı nəzərdə tutulur) müəllifinin yaşadığı dövrədək gətirib çıxarsın - Məhəmməd və onun ailəsinin xatirinə" ............ (26, s.61[a])

Bu fəsillərdəki şeyxlərin, övliyaların, sufilərin fikirlərini, həyat tərzlərini, kəlamlarını, ilahi eşqə olan münasibətlərini araşdırarkən çox maraqlı faktlarla rastlaşdıq; birincisi, şübhəsiz ki, «Munisnamə»də adı çəkilən övliyaların arasında başqa mənbələrdə heç rast gəlmədiyimiz onlarla övliyanın şəxsiyyəti haqqında məlumat əldə etmək mümkün olmuşdur. Deməli tədqiqatçıların marağı nöqteyi-nəzərindən bu əsər bir mənbə kimi çox böyük qiymətə malikdir, ikincisi, artıq başqa mənbələrdə adları çəkilmiş övliya, şeyx, dərvişlərin həyatından gətirilən misallar, onların kəlamları, tövbə etmə səbəbləri ya tam fərqli, ya da müəyyən qədər başqa tərzdə verildiyi üçün müəlliflərin qaynaqlandığı mənbələrin araşdırılması baxımından yeni bir tədqiq hədəfinin yaranması da maraq doğurur. Əsərdəki bu fəsillərlə yaxından tanış olduqda isə burada, bu sufi şeyxlərinin hansı məktəbə, firqəyə mənsub olduqları, kiminlə müsahib olub, kimin yolu ilə getdikləri, onların tövbə etmə səbəbləri haqqında məlumat əldə etmək imkanı yaranmışdır. Bu isə yeni tədqiqatlar, araşdırmalar üçün münbit bir zəmin yaradır.

Biz artıq qeyd etmişik ki, müqayisəli şəkildə araşdırdığımız bu üç mənbədə təkrar olunan adlar varsa da, əksər hallarda onlarla bağlı hadisə və kəlamlar eynilik təşkil etmir. Onların bəziləri, qismən oxşar ola bilər, amma, əksər hallarda

müstəqil, müxtəlif mənbələrdən götürüldükləri də aşkar şəkildə nəzərə çarpır. **«Munisnamə»**də yer almış adların bəziləri **«Təzkirət öl-Övliya»**da, bəziləri **«Kəşf əl-məhcub»**da varsa da, onlar məzmun baxımdan ya tam, ya da qismən fərqlidirlər. Elə övliyalar vardır ki, onların adı iki müəllifin əsərində çəkilmişdirsə də, üçüncüdə onun haqqında bir məlumat yoxdur. Çəkəcəyimiz misallarda da bunu görmək mümkündür**. «Munisnamə»**də adı çəkilən övliyaların **29-u** həm Əttarın, həm də Hücvirinin əsərində, **6-sı** Əbubəkrlə ilə ancaq Hücviridə, **48-i** haqqında məlumat isə ancaq **«Munisnamə»**də vardır.

Şübhəsiz ki, bizi daha çox **«Munisnamə»**də adı çəkilib, bu iki əsərdə xatırlanmayan övliyalardır. Biz bunları ayrılıqda öyrənib təqdim etməklə gələcək tədqiqatçılar üçün də münbit bir material vermiş oluruq. Bunu araşdıraraq bu övliyaların müxtəlif məktəblərə, müxtəlif istiqamətlərə, təsəvvüfün müxtəlif dövrlərinə mənsub olduqlarını müəyyənləşdirə bilmişik. Çox maraqlı faktdır ki, bu övliyaların böyük əksəriyyəti, məhz Cüneyd, İbrahim Ədhəm, Səri Səqəti, Nuri kimi tanınmış şeyxlərin davamçısı, həmsöhbəti, müridi olmuşlar. Təəssüflə bildirməliyik ki, bəzi hallarda, əlyazma oxunaqlı olmadığından, adlar müəyyənləşdirilməmiş qalmışdır. Amma mətnə əsaslanaraq, başqa mənbələrlə müqayisəli şəkildə, az da olsa, müəyyən məlumatlar bərpa edilmişdir.

Müqayisə etdiyimiz mənbələrdə adları çəkilməyən və araşdırılaraq şəxsiyyətlərinə müəyyən aydınlıq gətirilmiş bu övliyaları, şeyxləri, pirləri, təriqət başçılarını ayrılıqda nəzərdən keçirmək məqsədəuyğun olar. Bunların bir qisminin adı tam oxunaqlı olmuşsa da, başqa bir qismin adları ya yarımçıq oxunmuş, ya da, ümumiyyətlə oxunmamışdır. Bu övliyalardan bəzilərinin adlarına nəzər salaq:

**Əmir ibn Osman əl-Məliki.**

"O, sufi tayfasının imamı və şeyxi sayılırdı. O, dövrünün **çox böyük** və seçilən alimi idi. O deyirdi: »Bütün günahlardan, istər böyük, istər kiçik günahlardan çəkinib, **tövbə** etmək lazımdır, çünki hər şeyə qadir Allah buyurmuşdur ki, bütün günahkarlar cəzalandırılsın, günahları isə yalnız **tövbə** ilə yumaq olar". (26, s.44[a])

Əmir ibn Osman əl-Məliki ilə bağlı araşdırmalar, təəssüf ki, bir nəticə vermədi, amma bu kiçik məlumatdan bəlli olur ki, o, zəmanəsinin say-seçmə övliyalarından olmuş və **«tövbə»**nin fəzilətini çox yüksək qiymətləndirmişdir. Ümumilikdə isə **«tövbə»**nin islamda çox yüksək dəyərləndirildiyi məlum faktdır.

Biz tarixçi alim N.A.Əliyevanın «Əs-Səmaninin «Kitab əl-ənsab» əsərinin Azərbaycan bölməsinin əsas mənbələri» məqaləsində Hafiz Əbuləla bin Əhməd bin Məhəmməd bin Fəzlin və Əbülfəzl Məhəmməd bin Tahir Müqəddəsiyənin adlarına rast gəlirik. Əs-Səmaninin (1113-1167) bu əsəri qərbdə İspaniyadan tutmuş şərqdə Çinə qədər orta əsrlər müsəlman dünyasının bütün regionlarını əhatə etmişdur». (3.) Əbubəkrin **«Munisnamə»**sində bu əsərdə adları çəkilmiş bu iki sufinin müəyyən kəlamları, zamanlarında malik olduqları nüfuzları haqqında məlumat əldə edə bilmişik.

**Məhəmməd ibn Fəzl**

**"**O, **Səmərqənd** şəhərində yaşamışdır. Böyük pirlərdən biri olmuşdur.

Osman Hiri onun haqqında belə demişdir: "Canımda taqətim olsa idi, qardaşım Fəzlin yanına gedib onunla görüşərdim və beləliklə də onun qulluğunda durub dini xidmətlərindən bəhrələnərək ondan məmnun olduğumu bildirərdim».

Fəzl deyirdi ki, müsəlmançılığı dörd şey məhv edir:

- Birincisi, müsəlmanın elmi ilə əməli bir olmasa,
- İkincisi, müsəlman öyrənmək istəyənlərə mane olursa,
- Üçüncüsü, müsəlman bilmədiyi işin ucundan yapışırsa,
- Dördüncüsü, müsəlman bilmədiyini öyrənmək istəmirsə. (26, s.44[a])

**Tahir Müqəddəsiyə**

"O, **Şamın** pirlərindən sayılırdı, həm də böyük üləma idi. Onun sözlərinə görə **mükəmməl** olan heç bir şey əyriliyə meyil etməz". (24, s.50[a])

Nəzərdən keçirdiyimiz **«Təsəvvüf tarixi»** kitabından bizi maraqlandıran övliyaların bəziləri haqqında müəyyən məlumat əldə edə bildik. Bu kitabın **«Təsəvvüfün tərifi və mənbəyi»** bölümünə müraciət edərək Əbubəkr ibn Xosrovun **«Munisnamə»**sində müəyyən qədər təqdim olunmuş bəzi övliyaların adlarına rast gəldik.

Məsələn, **«Təsəvvüf bir əxlaqdır»** tezisini əsas kimi qəbul edən sufilərin fikirlərini bir mənəvi zirvə kimi anlayırıqsa, adlarını çəkdiyimiz şeyxlərin, övliyaların bu fikrə münasibəti də çox qiymətlidir. Bu baxımdan müqayisəli şəkildə **«Təsəvvüf tarixi»** kitabındakı şərhlərlə Əbubək-

rin adlarını çəkdiyi övliyaların kəlamlarını nəzərdən keçirərək müəyyən maraqlı faktlarla üzləşdik. Həmin kitabın **«Təsəvvüf gözəl əxlaqdır»** bölümündə belə bir parçaya nəzər yetirək:

....İslamın əxlaq nizamıyla maraqlanması, insanları pis xüsusiyyətlərdən uzaqlaşaraq yaxşı əməllərə yönəlməyə sövq etməsi məqsədilə bəziləri təsəvvüfə bu şəkildə tərif vermişlər: **Əbu Məhəmməd Cəriri** (v. 311/923): «Təsəvvüf, bütün yaxşı xüsusiyyətləri mənimsəmək və hər pis əməldən uzaqlaşmaqdır». **Əbu Bəkr Kəttani** (v. 322/933): «Təsəvvüf əxlaqdır. Əxlaqi cəhətdən səndən üstün olan mənəvi cəhətdən də üstündür». **Əbu Məhəmməd Murtaiş** (v. 328/939):

«Təsəvvüf gözəl əxlaqdır». (7. s. 21)

Bu üç sufinin heç biri haqqında müqayisəli şəkildə araşdırdığımız «**Kəşf əl-məhcub»** və **«Təzkirət ül-övliya»** əsərlərində məlumat yoxdur.

İndi isə **«Munisnamə»**dən gərəkli olan hissələri nəzərdən keçirək:

**Əbubəkr Cəriri**

"O, **Əbuəli Rudbarinin** yaxınlarındandır. Ondan soruşdular ki, sufilərin əlaməti nədir?

O dedi: "Ən yaxşı işlər və əməllərlə məşğul olaraq nalayiq işlərdən çəkinmək və uzaqlaşmaq".

Başqa bir zaman demişdir: "Halal yeyib-içsən, Allah dərgahına ibadət və itaət sənə nəsib olar. Şübhəli olan yemək-içmək, Allaha doğru gedən yolun qapılarını üzünə bağlayacaqdır". (26, s.59[a])

**Əbubəkr Əl-Kəttani**

"O, dinin, şəriətin və təriqətin say-seçmə adamlarından idi. O, Bağdadda anadan olmuşdur, **Məkkədə** mücavir idi, orada da vəfat etmişdir.

Bir nəfər ondan öyüd-nəsihət istəyir.

O deyir: «Necə görünürsənsə, daxilən də elə olmalısan. Batinin necədirsə, zahirin də elə olmalıdır. Batininlə zahirin vəhdətdə olmalıdır. Balıq ilanına bənzəyirsiniz. Nə ilan kimi bütöv bir üzlü, nə də balıq kimi tam iki üzlüsünüz«.

Soruşdular:

- Balıq və ya ilan olmaq üçün nə etmək lazımdır?

O dedi: "Unutmamalısan ki, sürdüyün həyata uyğun olaraq dünyada cisminlə, axirətdə isə ruhunla cavab verəcəksən".

Ondan soruşdular ki, elm əhli nəyin xilafına getməmişdir?

O cavab vermişdir: "Dünyada **zahidliyin**, səxavətdə öz **nəfsinin**, xalqa **öyüd-nəsihət** verməyin!" (26, s.56[a])

**Əbdullah İbn Məhəmməd Murtəiş**

"O, **Nişapurun Hirə** məhəlləsindən idi. **Cüneyd** və **Əbuhəfsin** müsahibi idi. O, Bağdadda vəfat etmişdir.

Mürtəiş demişdir: "Dincliyinin, rahatlığının səbəbini Allahdan başqa bir şeydə görən, bilən ürək daima əzab və əziyyət içindədir".

O demişdir ki, **tövhid** üç əsas üzərində dayanmışdır:

- Birincisi, Allahı **yerin-göyün xaliqi** və **yaradıcısı** kimi tanımaq.
- İkincisi, Onun **təkliyinə inanıb** və Onu qəbul etmək.
- Üçüncüsü, Ona **şərik qoşmaqdan** ürəyi təmizləmək.

Ondan soruşdular ki, Allah bəndəsi Allahın dostluğunu necə əldə edə bilər?

O, deyir: "Allahın düşməni ilə düşmən olmaqla**.** Allahın əsas düşməni isə, dünya və insan nəfsidir".

Vəzifəli adamlardan biri onun yanına gəlib, ondan öyüd-nəsihət istəyir.

O deyir: "Get Onun qapısına (Allahın dərgahına), o sənə məndən daha yaxındır. Məni də Onunla tək qoy, O mənə səndən daha yaxındır".

Bir dəfə gəlib ona xəbər verirlər ki, bir adam suyun üzərində yeriyir.

O deyir: »Məncə, öz nəfsini cilovlamağı bacaran kəs o kəsdən min qat kamildir. (26, s.54[a,b])

Gördüyümüz kimi bu üç övliyanın adı müqayisə üçün müraciət etdiyimiz mənbələrdə çəkilməmişdirsə də, onlar daha sonralar, müəyyən dərəcədə tədqiq olunaraq sufilik tarixində özlərinə müvafiq yer etmişlər. Doğrudur, bu məsələdə birincilik yenə də **«Munisnamə»**yə verilməlidir.

Kitabda **«Təsəvvüf təsfiyədir, qəlb təmizliyidir»** fikrinə üstünlük verən sufi övliyalarının arasında **Abdullah ibn Məhəmməd əl-Xərrazın** adı da yer almışdır. Bu kitabda belə verilmişdir: .....Bəzi təsəvvüfçülər qəlbə əhəmiyyət verdiyi üçün təsəvvüfə bu cür tərif vermişlər. Bu tériflərdən bəziləri belədir: **Bişr Xəfi**: (v.227/841) «Sufi, qəlbini Allah üçün təmizləyib tərtəmiz edən kimsədir», **Əbu Səid Hərraz**: (v.277/890) «Sufi, Allahın qəlbini təsfiyə edib nurla doldurduğu kimsədir. Qəlbinə belə nur girən kimsə zikriilahidən ləzzət alar». (7. s.21)

**Bişr Xəfi** haqqında **Əttarın «Təzkirət ül-övliya»**sında və **Hücvirinin «Kəşf ül-məhcub»**unda müəyyən məlumat vardırsa da, **Xərraz** haqqında heç bir məlumat yoxdur. **«Munisnamə»**də isə **Abdullah ibn Məhəmməd Əl-Xərrazın** adı yer almışdır və onun haqqında az da olsa, məlumat ala bilirik.

"O, **Rey** pirlərindən idi. **Kəbədə** mücavir olmuşdur. **Əbuhəfsin** şagirdlərindən biri idi. Ondan nəql edirdilər ki, bir gün Abdullanın yanına getdim, eşitdim ki, deyir:

- **Oruc tutmaq** zahidlərin aclığıdır.
- Allah dərgahına **zikr etmək** ariflərin qidasıdır.
- Allaha tapınıb **ibadət etmək** alimlərin, **işarətdən anlamaq** isə ariflərin həzzidir". (26, s.50[a])

Gördüyümüz kimi **Əl-Xərrazın** dünyagörüşündə **əsl sufini** xarakterizə edən əsas cəhətlər, **oruc tutmaq, zikr etmək, ibadət etmək** və **işarətdən anlamaqdır.**

**Əbül-Hüseyn İbn Bənnan** da, həmçinin **Əbusəid Xərrazın** müsahibi olmuşdur, onun haqqında **«Munisnamə»**də deyilir:

"O, **Misirin** böyük şeyxlərindən sayılırdı. O, **Əbusəid Xərrazın** musahibi olmuşdur".

O, demişdir: "Alçaqlıqdan uzaq olun, haram tikə yeməyin". (26, s.57[a])

«**Munisnamə**»də adı çəkilən **Əbu Məhəmməd Həddad** haqqında başqa mənbələrdən hər hansı bir məlumat əldə edə bilmədik. Onun haqqında bizə məlum olan fakt, onun **Əbuhəfs Həddadın** yetirməsi olmasıdır. **Əbu Həfs Həddad** isə təsəvvüfü **ibadətdə, ədəbdə** görən nüfuzlu şeyxlərdən olmuşdur. Bunu nəzərə alsaq, **Əbu Məhəmməd Həddadın** da bu fikirlərə üstünlük verdiyini təxmin edə bilərik.

Kitabda verilir:

**Əbu Həfs Həddad** (v.265/878): "Təsəvvüf **ədəbdən** ibarətdir. Hər məqamın, hər halın və hər vaxtın bir **ədəbi** vardır. Ancaq buralardakı **ədəbə** riayət edən adam **rical** sinfinə girər".

«**Munisnamə**»də isə belə bir məlumat verilir:

**Əbu Məhəmməd Həddad**

**"Əbuhəfsin** şagirdlərindən, həmçinin dostlarından biri idi. O, **Nişapurun** əski pirlərindən sayılırdı.

Həddad deyirdi: "Etdiyi ibadətlərinə görə özünü öyüb dikbaşlıq edənin ibadəti əsl ibadət baxımından **qəflətlə** (unutqanlıqla) eynidir".

"Müsəlmanlara qarşı xəyanət etməyənin işinin xeyir-bərəkəti artar" (26,s.50[a])

Kitabın «**Təsəvvüf Allaha tam təslimiyyətdir»** bölümündə oxuyuruq: ..... Bəzi təsəvvüfçülər **təslimiyyət** və **ibadət** mövzularına həssaslıqla yanaşdıqları üçün təsəvvüfə də aşağıdakı kimi təriflər vermişlər: **Əbu Məhəmməd Ruveym** (v.303/915): «Təsəvvüf, Allah ilə birlikdə nəfsi muradı - ilahiyə buraxmaqdır», **Əbul-Hüseyn Müzəyyin** (v.328/939): «Təsəvvüf Haqqa boyun əyməkdir**», Əbu Əli Rudbari** (v.322/933): «Təsəvvüf, bir insanın qovulsa belə sevgilisinin qapısında gözləməsidir», **İbn Hafif** (v.331/942): «Təsəvvüf, təqdiri-ilahiyə səbir, Allahdan gələnə razı olaraq uzaq məsafələri qət etməkdir», **Əbu Səhl Suluki**: «Təsəvvüf etirazı tərk etməkdir» (7. s.25) kimi təriflər demişlər.

Bu parçada adı çəkilən övliyalar haqqında **«Munisnamə»**də də, **«Kəşf əl-məhcub»**da da, **«Təzkirət ül-övliya»**da da məlumat vardır, ancaq **Əbül-Hüseyn Müzəyyən** haqqında olan məlumat yalnız **«Munisnamə»**dədir:

**Əbül-Hüseyn Müzəyyən**

"Müzəyyən - **bərbər** deməkdir. O, **Bağdaddan** idi. **Cüneydin** müsahibi olmuşdur. Məkkədə mücavir idi, orada da vəfat etmişdir. Sufilikdə bir neçə mərhələlər keçmiş, kəramət sahibi və zahid idi.

O, deyirdi : "Öz könlündə və ürəyində daima **Allahın zikri** ilə məşğul olan bəndə dünya və axirətin nə olduğunu unudar",

"İnsanlara ehtiyacı olmayan və yalnız ulu Tanrıya arxalanan adama, Allah Təala insanları möhtac edə",

"Günahın üzərindəki günah qisasın əvəzidir". (26, s.56[b],57[a])

Gördüyümüz kimi, burada da **Allahın zikrinə** xüsusi dəyər verilmişdir.

Daha əvvəl **Cəriri ilə Əbuəli Rudbarinin** həmmüsahib, həmfikir olduqlarının **«Munisnamə»**də qeyd olduğunu demişdik, Rüdbarinin böyük sufilərdən olduğunu söyləmişdik, bundan başqa bu əsərdə onun **Bənan Hambal** haqqında nəql etdiyi bir hadisə də yer almışdır. **Rüdbari** nəql edirdi ki, **Bənan Hambalı** aslanın yanına atıblarmış, aslan ona toxunmamış, onu yalamışdır.

Kitabın **«Təsəvvüf batini elmdir»** bölümündə sadalanan övliyaların sırasında olanlardan biri **Əbu Məhəmməd Murtaişdir.** (v.328/939) O deyir: «Sufi, himməti addımını keçməyəndir», «Təsəvvüf bir daxili elmdir», «Namazlarını ixlasla qılan möminlər qurtuluşa çatdı» - deyə buyurmuşdur. (7, s.31)

Bu övliyanın adı kitabın **«Təsəvvüf gözəl əxlaqdır»** bölümündə də çəkilmişdir. (7, s.21) Biz də, həmçinin daha əvvəl **Əbu Məhəmməd Mürtaiş** haqqında «**Munisnamə**»də verilmiş məlumatdan söz açmışıq.

Gördüyümüz kimi tədqiqat nəticəsində çox maraqlı faktlar, məsələlər ilə üzləşmişik. Bu bizə əsas verir ki, Əl-Ustadın unikal "Munisnamə"sinə daha dərindən, daha geniş şəkildə yanaşaq. Əsərin elmi əhəmiyyət nöqteyi-nəzərdən çox mükəmməl, qiymətli olan III, IV fəsillərinə müxtəlif aspektlərdən yanaşaraq hərtərəfli tədqiq edək.

**Ədəbiyyat:**

***Azərbaycan dilində:***

1. N.A.Əliyeva, «Mənbəşünaslıq, tarixşünaslıq. Tarix və onun problemləri», №2, 2010, səh.267.
2. Xavəri S, «Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu» Bakı – «Elm» – 2016, 180s.
3. «Təsəvvüf Tarixi», II nəşr. Bakı İslam Universiteti nəşri № 04 Bakı – 2011. Elmi Redaktor: Dr. Rafiz Manafov

***Rus dilində***

4. Бертельс Е.Э, Суфизм и суфийская литература. М.,«Наука»,1965, 527 с.
5. Е.А. Егорова, Жанр агиографии и агиографическая модальность в современном французском романе**,** Вестник Московского Университета. Сер. 9. Филология. 2008. № 1
6. Ислам, Энциклопедический словарь. М., «Наука», 1991, 315 с.
7. Крымский А.Е, Низами и его современники. Баку, «Элм», 1981, 488 с.
8. Маматов М.А, Сущность суфизма: для студентов с углубленным изучением истории и культуры ислама–Уфа: Изд-во БГПУ, 2011, 168 с.
9. Мунис-наме. Пер. с фарси, предис. и комм. Рустама Алиева. Баку, «Язычы», 1991, 584 с.
10. Тримингем Дж.С, Суфийские ордены в исламе. М., «Наука», 1989, 328с.
11. Фильштинский И.М, История арабской литературы X-XVIII вв. М., «Наука», 1991, 726 с.

***Fars dilində***

12. Əli ibn Osman Hücviri. Kəşf əl-məhcub. Be kuşeş-e Fəridun Asyabi Eşği Zəncani. Ğum: moəssese-ye fərhəngi və ettela-ye rəsani təbyan, 1393.
13. Şeyx əbu Əhməd Həmid Məhəmməd ibn Əbubəkr İbrahim Fəridəddin Əttar Nişaburi. Təzkirət ül-övliya. Əz ruye nosxe-ye Ronaldo Nikolson be kuşeş-e Ə.Təvəkkoli.
14. Munisname. Nosxe-ye xətti muze-ye Britaniya. Şomare-ye 9317

***İnternet resursları***

15. https://modern.az/az/news/41340 XI-XII əsrlərdə Azərbaycanda sufizm və sufilər, XI-XII əsrlərdə başlıca ideya. 6 İyul 2013

**Rana Rzayeva**

**About Sufis whose names are mentioned in the work of "Munisnama"**

***Summary***

The main goal of the article is to study the Sufis whose names are not mentioned in the treatises of al-Hujviri Ali Ibn Uthman al-Jullabi "Revealing the hidden behind the veil" and Farid al-Din Attar "Stories of the saints". The study of these Sufis makes it possible to present a more clear and broad picture of the development of these currents. The main task of the article is to study exactly those Sufis whose names are not mentioned in the treatises of Khujviri and Attar. While studying the Sufis who became known for us thanks to Abubakr Ibn Khosrow, it was found out that they are mostly companions of fairly well-known noble sheikhs and that each of them was a revered and respected Sufi in his own right. We were able to get some information about some of them thanks to the book "History of Tasavvof" the scientific editor of which is Dr. R. Manafov. In this book, we have found the facts confirming the materials "Munis-nama". In conclusion, it should be noted that the work on the work of Abubakr "Munisnama" certainly requires many more years of research.